# 20 Yanvarda faciə və qəhrəmanlığı əks etdirən heykəltəraşlıq əsəri

Qanlı Yanvar hadisələrindən 30 il keçir. 1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olub, milli müstəqillik, azadlıq uğrunda mübarizəsinin və yenilməz iradəsinin rəmzinə çevrilib. Keçmiş sovet ordusunun cəza tədbirlərinə məruz qalan xalqımız azadlıq əzmini itirməmiş, əksinə, haqq səsini daha ucadan bəyan etmişdi.

Azərbaycana qarşı ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkarlığından və keçmiş SSRİ rəhbərliyinin onlara havadarlığından hiddətlənən, Bakının küçə və meydanlarına çıxaraq buna qəti etirazını bildirən xalq kütlələrinə qarşı sovet ordusunun döyüş hissələrinin yeridilməsi Azərbaycanda misli görünməyən faciəyə səbəb oldu. Milli azadlığı, ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxan dinc əhaliyə divan tutulması, kütləvi terror nəticəsində yüzlərlə günahsız insanın qətlə yetirilməsi və yaralanması totalitar sovet rejiminin süqutu ərəfəsində onun cinayətkar mahiyyətini bütün dünyaya bir daha nümayiş etdirdi. Keçmiş sovet dövlətinin hərb maşınının Azərbaycan xalqına qarşı həyata keçirdiyi vəhşi terror aktı insanlıq əleyhinə törədilən ən ağır cinayətlərdən biri kimi bəşər tarixinə yazıldı.

20 Yanvar Azərbaycan xalqının tarixində sadəcə ağrı və acı ilə xatırlanacaq gün deyil, həm də Azərbaycan xalqının şan və şərəf günüdür. Xalq həmin gün bütün beynəlxalq normaları və konstitusiya maddələrini kobudcasına pozaraq üstünə şığıyan sovet hərbçilərinə qarşı ağır texnika, hətta qadağan olunmuş silahlara sinəsini sipər etdi, özünün mənliyini və mətinliyini göstərdi. Məhz həmin hadisələr bilavasitə nümayiş etdirdi ki, Azərbaycan xalqı pozulan hüquqlarının, suverenliyinin bərpa olunması uğrunda savaşmaq əzminə sahibdir.




20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və qırmızı rejimin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Əlbəttə, ermənilərin fitvası ilə törədilmiş bu cinayət Azərbaycan xalqının iradəsini qıra, azadlıq eşqini söndürə bilmədi. Xalqımız qanı bahasına da olsa istəyinə - azadlıq və müstəqilliyinə qovuşdu və bu nailiyyəti heç vaxt əlindən verməyəcək.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra - 1994-cü ildə 20 Yanvar hadisələrinə siyasi-hüquqi qiymət verildi və cinayəti törədənlərin adları ictimaiyyətə çatdırıldı. 20 Yanvar - Ümumxalq Hüzn Günü elan edildi. Sovet qoşunlarının Azərbaycanda törətdiyi qanlı qırğından uzun illər keçməsinə baxmayaraq, xalqımız o dəhşətli günlərin ağrı-acısını unutmur, hər il 20 Yanvar faciəsi qurbanlarının xatirəsini böyük ehtiramla yad edir.

Prezident İlham Əliyevin 20 Yanvar şəhidlərinin fədakarlığına, Vətən və xalq qarşısındakı xidmətlərinə verdiyi qiymət bu baxımdan olduqca səciyyəvidir: "Azadlıq, müstəqillik uğrunda, Vətən uğrunda özlərini qurban verən şəhidlərimizin hamısının xatirəsini həmişə qəlbimizdə yaşatmalıyıq. Hesab edirəm ki, bugünkü müstəqil, qüdrətli Azərbaycan xalqımızın ən böyük sərvətidir. Şəhidlərimizin, canlarını qurban vermiş insanların bu işdə böyük xidməti olubdur. Bu da heç vaxt yaddan çıxarılmamalıdır".

Azərbaycan xalqının azadlıq mübarizəsinə, 20 Yanvar faciəsinə dövlət səviyyəsində tam siyasi-hüquqi qiymət verilməsi, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi ümummilli lider Heydər Əliyevin və onun siyasi varisi dövlət rəhbəri İlham Əliyevin həyata keçirdiyi tədbirlərlə mümkün olmuşdur. Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi istiqamətində atdığı addımlar, o cümlədən 1998-ci il 31 mart tarixli fərmanla "20 Yanvar şəhidi" fəxri adının təsis edilməsi, 1998-ci il 5 avqust tarixli sərəncama əsasən Şəhidlər Xiyabanında "Əbədi məşəl" kompleksinin yaradılması şəhid ailələrinə göstərilən həmin diqqət və qayğının nəticəsidir.

Bakı şəhərində 1990-cı il 20 Yanvar faciəsi qurbanlarının xatirəsinə ucaldılmış "20 Yanvar abidə-kompleksi" də Azərbaycan xalqının başına gətirilən neçə-neçə dəhşətli hadisəni yada salır. Kompleksin tikintisinə 2009-cu ilin oktyabrında başlanıldı. Bu möhtəşəm abidə-kompleksində memar Ədalət Məmmədov, heykəltəraşlar Azad Əliyev və Cavanşir Dadaşov layiqli bir əsər, dolğun kompozisiya yaratdılar. Xatirə kompleksinin mərkəzində hündürlüyü postamentlə birlikdə 8 metr olan əzəmətli abidə qoyuldu. Abidənin üzərində 20 Yanvar faciəsi zamanı həlak olmuş 147 nəfərin adı və soyadı, eləcə də ümummilli lider Heydər Əliyevin qanlı Yanvar hadisələri ilə bağlı dediyi "1990-cı il yanvarın 20-si Azərbaycanın tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur" sözləri qızılı hərflərlə həkk olundu. Postament üzərində "20 Yanvar şəhidlərinin əziz xatirəsinə" sözləri yazıldı. 20 yanvar 2010-cu ildə Azərbaycan Prezidenti İlham Əliyevin iştirakı ilə "20 Yanvar abidə-kompleksi"nin açılışı oldu. Bu abidə-kompleksdə 20 Yanvar faciəsinin ağrılarını, o günlərin acısını, fəryadını anladan, həm də insan xarakterindəki mətinlik, vətən sevgisinin ölməzliyi qranit lövhədə bacarıqla əks etdirilən, hər kəsi göz yaşlarına boğan hüzn, kədər və bununla bərabər, köksünü qabardan şəhidlik əzəməti, qürur da var.

Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsi, tarixə Qanlı Yanvar adı ilə yazılan 20 Yanvar faciəsinin qurbanlarının xatirəsinə ucaldılmış ən böyük ehtiram olan bu heykəltəraşlıq nümunəsi, 1990-cı ildə Bakıya hücum edən sovet qoşununun şəhərə daxil olduğu istiqamətdə qoyulmuşdur və 20 Yanvar abidə-kompleksləri içərisində ən dəyərli əsərlərdən biridir.

Hər heykəl bir tarixin əksidir. Elə heykəltəraşlıq nümunələri var ki, tarixin yalnız bir üzünü, bir səhifəsini əks etdirmir, mühüm bir dövrdə bir xalqın azadlıq mücadiləsini nəsillərə qan yaddaşı kimi ötürən sənət əsəri, tarixin səhifəsidir. Bu kompleks də məhz həmin nümunələrdən biridir.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**

Respublika.- 2020.- 18 yanvar.- S.5.